7 aprel 2019-cu il, bazar

XALQ QƏZETİ

# Azərbaycanlı alim nüfuzlu beynəlxalq elmi jurnalın şef-redaktoru təyin edilib




https://www.oatext.com/Neurology-And-Neuroscience-Reports-NNR.php#Editorial_Board

Neurology and Neuroscience Reports

About Journal
Editor-in-Chief
Editorial Board
In Press
Current Issue
Archive
Submit Manuscript
For Authors

**Associate Editor in Chiefs**

Dr. Michael D. Califronas
Michael D. Califronas MD, ECP, AEU (Paris), DCTP Physician, Psychotherapist, Certified Clinical Supervisor, Certified Focusing Oriented Therapist and Trainer (UEA), President of the Hellenic Institute for Psychotherapy, Founding President of the Hellenic Association for Person Centred and Experiential Approach. Member: Institute for Biology and Medicine of Stress, Medical Board of Athens, Hellenic Endocrine Society, National Association for Psychotherapy in Greece

Prof. Dr. Abdelmonem Awad Mustafa Hegazy
Professor and Former Chairman of Anatomy and Embryology Department, Faculty of Medicine, Zagazig University, Egypt Referee Member of Scientific Research for Professors' Promotion in Egyptian Universities Participation in Evaluation of Professors' Promotion at John Hopkins University, USA Member of ERIK "International Experts for Research Enrichment and Knowledge Exchange"

Prof. Vagif Bilas oghlu Shadlinski
Head of the Department of Human Anatomy, Doctor of medical sciences, Azerbaijan Medical University, Azerbaijan

**Azərbaycan Tibb Universiteti (ATU) mütəxəssislərinin beynəlxalq miqyasda uğurları artmaqdadır. Bu günlərdə ATU-nun təmsilçisi növbəti uğura imza atıb. Belə ki, universitetin insan anatomiyası və terminologiya kafedrasının müdiri, əməkdar elm xadimi, professor Vaqif Şadlinski Yaponiyada işıq üzü görən nüfuzlu beynəlxalq elmi jurnalın şef-redaktoru təyin edilib.**

"Neurology and Neuroscience Reports" adlı jurnal nevrologiya və neyroelmlər sahəsində elmi araşdırmalar, yeniliklərin təqdim olunduğu nüfuzlu beynəlxalq nəşrdir. Bu jurnal tibb elminin mühüm sahələri üzrə bütün dünyadan olan müəlliflərin məqalələrinin operativ çapını təşkil etmək üçün orijinal bir platformadır.

Jurnalda dərc olunan məqalələrdə nevrologiya və neyroelmlərlə bağlı yeniliklər, aktual mövzular, praktiki-kliniki nəticələr yer alır. Jurnalda verilən hesabatlar çərçivəsində həm əlyazmalar, həm tədqiqat işləri, eyni zamanda, qısa məlumatlar, kitablara rəylər və redaksiyaya göndərilmiş məktublar dərc olunur. Bu hesabatlar elmi tədqiqatçılarla yanaşı, gənc nevroloqlar və tələbələr üçün də böyük əhəmiyyət kəsb edir. Peşəkarlar burada neyrofiziologiya, degenerativ nevrologiya, cərrahi reabilitasiya və tibbin bu sahəsinə aid digər müasir metodlar haqqında maraqlı araşdırmalar və elmi işlərlə tanış ola bilərlər.

Belə bir mötəbər jurnalın rəhbərliyində – redaksiya heyətində professor Vaqif Şadlinskinin adının da yer alması Azərbaycan elminin dünyada artan nüfuzunun növbəti göstəricisidir. Azərbaycan Tibb Universitetində çalışan yüksək ixtisaslı peşəkarların adlarının dünya miqyaslı alimlərlə birgə çəkilməsi bir daha bu ali məktəbin beynəlxalq uğurlarının səviyyəsindən xəbər verir.

*"Xalq qəzeti"*